**Azərbaycan Respublikasının Vəkillər**

**Kollegiyasının sədri**

**Anar Bağırov cənablarına**

Neftçala rayon Bankə qəsəbəsində

qeydiyyatda olan, hazırda Abşeron rayon

Xırdalan şəhəri Fizuli küçəsi ev 34,

mənzil 25-də yaşayan Abbasova Sevinc

Baxış qızı tərəfindən

077-304-79-80

**TƏŞƏKKÜR MƏKTUBU**

**Hörmətli Anar müəllim!**

Sizə müraciət edən bir il beş ay ərzində əziyyət çəkən bir anadır. 2013-cü ildən bu günədək mənim başıma açılmayan müsibət qalmamışdır. Hadisəni ətraflı şəkildə təqdim edərək hüquq mühafizə orqanlarının qanunsuz əməlləri, onların cinayətkarları və cinayətlərə havadarlıq etməsini nəzərinizə çatdırmaq istəyirəm.

2023-cü il 26 oktyabr tarixində saat 20-20 radələrində oğlum Bayramov Şəhriyar Tahir oğlu Abşeron rayon polis İdarəsinin əməkdaşları tərəfindən tutularaq polis idarəsinə gətirilmişdir.

Polis İdarəsində polis əməkdaşları tərəfindən zorakılıqla döyülərək ona qadın paltarı geyindirilmiş, sözün əsl mənasında zorlanaraq onu cibinə narkotiv maddə tullatdırılaraq Azərbaycan Respublikasının Cinayət Məcələsinin 234.1-1-ci maddəsi ilə ittiham elan edilərək həbsə alınmışdır.

Vəkillər Kollegiyasının
Rəyasət Heyəti
Daxil olma № 1704
«08» 05 2025

Mən bir ana olaraq Konstitusion hüquqlarımdan istifadə edərək vəkillə müqavilə bağlamaq və oğlumun hüquqlarını müdafiə etmək üçün Vəkillər Kollegiyasının üzvü vəkil Bayramov Şamil Vaqif oğluna müraciət edərək onunla müqavilə bağladım.

Müqavilə bağladığı ilk gündən öz peşə fəaliyyətini həyata keçirməklə mənə övlad qayğısı göstərməklə işinin peşəkarı olan vəkil Bayramov Şamil Vaqif oğlu məni bu ağır günlərimdə tək qoymamışdır.

Bu gün vəkil Bayramov Şamil Vaqif oğlunun xidmətləri sayəsində oğlum Bayramov Şəhriyar Tahir oğluna Sumqayıt Ağır Conayətlər məhkəməsinin 29 aprel 2025-ci il tarixli hökmü ilə bəraət verilmişdir və azadlığa buraxılmışdır.

Mənim ən çətin, ağır günlərimdə mənə bir vəkil kimi dəstək olmuşdur. Mən bir ana kimi mənə dəstək olan vəkil adını uça tutan oğullarımızla fəxr edirik. Fəxr edirik ki, bizim hüquqlarımızın qorunması Sizlərin rəhbərliyi altında fəaliyyət göstərən vəkil Bayramov Şamil Vaqif oğlu şəxsəə həvalə edilmişdir.

Mən bir ana olaraq Sizlərə minnətdarlığımı bildirirəm. Vəkil adının uça tutulması, öz peşəkar fəaliyyətini inamla, qorxmadan, təziqlərə baxmadan həyata keçirən vəkillərimiz bizə gələcəyimizə ümidlə baxmağa, daim dövlətimizin və dövlətçiliyimizin yanında olmağa, inamla irəli getməyə stimil verir.

Yaxşı kimi varsınız, yaxşı ki, vəkil Bayramov Şamil Vaqif oğlu kimi vəkillərimiz var.

Mən bir daha Azərbaycan vətəndaşı kimi, Azərbaycan qadını kimi Sizlərə təşəkkür edirəm.

İmza:  Abbasova Sevinc Baxış qızı